**BTC-nin tarixi:**

**20 sentyabr 1994-cü il** - "Əsrin müqaviləsi" imzalandı;

**18 noyabr 1999-cu il** - İstanbulda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri tərəfindən xam neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair saziş imzalandı;

**avqust 2002-ci il** - Londonda kəmərin tikintisini və gələcək istismarını aparmaq üçün BTC Ko şirkəti yaradıldı;

**18 sentyabr 2002-ci il** - Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyuldu;

**25 may 2005-ci il** - Kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi, Səngəçal terminalından boru xəttinə ilk neft vuruldu;

**oktyabr 2005-ci il** - Kəmərin Gürcüstan hissəsi istifadəyə verildi;

**28 may 2006-cı il** - Azərbaycan nefti Ceyhan limanına çatdı;

**16 iyun 2006-cı il** - Qazaxıstanın paytaxtı Astanada Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqavilə imzaladılar;

**4 iyul 2006-cı il** - Xəzər nefti ilə yüklənmiş ilk tanker Ceyhan limanından Avropaya yola salındı;

**13 iyul 2006-cı il** - Ceyhan şəhərində kəmərin təntənəli açılış mərasimi keçirildi. Həmin günədək Ceyhan limanından 4,8 milyon barel neft yüklənmiş 7 tanker dünya bazarlarına yola salındı.